**AZƏRBAYCAN RESPUBLİKASININ
İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU**

"25" fevral 2021-ci il                                                                 № IX/21-20859

**Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri
cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 25 illik yubileyi münasibətilə Sizi, dəyərli kollektivinizi və Palatanın bütün üzvlərini səmimi qəlbdən təbrik edir, məsul və şərəfli peşənizdə müvəffəqiyyətlər arzulayırıq.

İyirmi beş illik müddət ərzində Auditorlar Palatası Azərbaycanda auditin yüksək etik və peşə standartlarının yaradılması yönümündə çox böyük işlər görmüşdür. Sizin başçılıq etdiyiniz Auditorlar Palatası hər zaman yüksək peşəkarlıq, intellekt və bacarıq, vətəndaşlıq mövqeyi və məqsədyönlü fəaliyyəti ilə seçilmişdir. Dövlətimizin başçısı cənab İlham Əliyevin kollektivinizə ünvanladığı müraciətdə vurğuladığı kimi, Palatanın fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, daxili audit xidməti korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilmişdir, eləcə də auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülmüşdür. Bundan əlavə, Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən, Beynəlxalq Mühasiblər Federasiyası kimi çox nüfuzlu bir təşkilatda ölkəmizi layiqincə təmsil edir.

Ümidvarıq ki, Auditorlar Palatası Sizin rəhbərliyiniz altında öz sağlam və fəal həyat mövqeyi ilə bundan sonra da ölkəmizdə müstəqil auditin inkişafına, tərəqqisinə və şəffaflığın təmin edilməsinə xidmət edəcək, Azərbaycan iqtisadiyyatının möhkəmləndirilməsinə daha böyük töhfələr verəcəkdir.

**Hörmətlə,**

**İdarə Heyətinin sədri**                                                  **Fəxri Kazımov**

Az1014, Bakı şəhəri, Bül-Bül prospekti, 40
http://www.mcgf.gov.az
Tel.: (+994 12) 441 24 23; Faks: (+994 12) 598 11 77
Elektron poçtu: office@mcgf.gov.az